# Kim Allahın sözünün ən uca olması üçün vuruşarsa, məhz o, Allah yolundadır

Əbu Musadan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allahın Elçisindən (Allahın salavatı və salamı onun üzərinə olsun) cəsarətindən dolayı döyüşən, millətçilik üçün döyüşən və riya üçün döyüşən kişilər haqqında soruşdular ki, bunlardan hansı Allah yolundadır? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Kim Allahın sözünün ən uca olması üçün vuruşarsa, məhz o, Allah yolundadır."

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) döyüşənlərin məqsədlərinin müxtəlif olması haqqında soruşuldu. Kimisi cəsarətindən, kimisi millət təəssübkeşliyi, kimisi də xalq arasında yerini görmək üçün vuruşur. Bəs bunlardan Allah yolunda döyüşəni hansıdır? Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirdi ki, Allahın sözü ən uca olsun deyə döyüşən Allah yolunda döyüşən kəsdir .

http://www.sunnah.global/hadeeth/az/show/2969